

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 87 (23.974)

*12 may 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Dövlətimizin başçısı Füzuli Şəhər Peşə Liseyinin təməlini qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər. Sonra Prezident İlham Əliyev 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində də səfərdə olublar. Dövlətimizin başçısına və birinci xanıma şəhərdəki inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri barədə məlumat verilib. Sonra Şuşadakı Şirin su hamamında, məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evində aparılan bərpa işləri ilə tanışlıq olub. Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşada yeni inşa olunacaq məscid kompleksinin layihəsi barədə də məlumat verilib, Şuşada Mehmandarovların malikanə kompleksində aparılan, Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə tanışlıq olub. Həmin gün Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı olub. Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb, sonra şəhərdəki inzibati binanın qarşısında müraciət edib.

## Naxçıvan Muxtar Respublikasının turizm imkanları Birləşmiş Ərəb Əmirliklərində təqdim olunur



Mayın 9-da Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində ən böyük və nüfuzlu beynəlxalq sərgilərdən biri hesab edilən "Arabian Travel Market 2022" (ATM) beynəlxalq turizm sərgisinə start verilib.

Sərgidə vahid Azərbaycan stendi altında Naxçıvan Muxtar Respublikası stendi təşkil edilərək muxtar respublikanın turizm potensialı təbliğ olunur.

Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə tədbirdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti, Ağbulaq İstirahət Mərkəzi və 31 yerli turizm şirkəti iştirak edir.

Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və "Nəqşicahan" Holdinq Şirkətlər Qrupunun əməkdaşları tərəfindən sərgi iştirakçılarına Naxçıvan Muxtar Respublikasının turizm potensialı və mövcud turizm məhsulları barədə geniş məlumat verilir, eyni zamanda muxtar respublikanın sağlamlıq turizm potensialı ziyarətçilərə təqdim olunur.

Sərgidə diyarımızın turizm potensialı ilə bağlı videoçarxlar və Ağbulaq Xizək Mərkəzi



sərgi iştirakçılarının böyük marağına səbəb olub. Həmçinin Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən hazırlanmış bukletlər, "Naxçıvan 4 fəsildə", "Naxçıvan – Şərqin əfsanəsi" kitabları, eləcə də muxtar respublikada fəaliyyət göstərən hotellər haqqında çap məhsulları, həmçinin yerli istehsal məhsullarımızdan "Badamlı", "Sirab" mineral suları, Naxçıvan duzu beynəlxalq sərgidə nümayiş etdirilir.

Yaxın Şərqdə ən böyük turizm sərgisi olan ATM turizm sənayesi üçün əhəmiyyətli hadisə və bütün iştirakçılar üçün daha sıx əlaqələr qurmaqda, əməkdaşlıq sazişləri bağlamaqda gözəl imkandır.

Sərgi çərçivəsində xarici turoperatorlara, BƏƏ və Fars körfəzi ölkələrinin turizm agentlərinə Naxçıvan Muxtar Respublikası haqqında geniş məlumat verilərək buradakı yerli turoperatorlarla əlaqələrin qurulmasına köməklik göstərilir.

Sayca 29-cu dəfədir ki, keçirilən sərgidə, ümumilikdə, 112 ölkədən 1500-dən çox şirkət iştirak edir.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## "Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sistemlərinin İnkişafı Layihəsi"nin icrası ilə bağlı görüş keçirilib

***Naxçıvan Biznes Mərkəzində Asiya İnkişaf Bankının dəstəyi ilə reallaşacaq "Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sistemlərinin İnkişafı Layihəsi"nin icrası ilə bağlı görüş keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə Biznes Mərkəzi ilə yaxından tanış olub, muxtar respublikada istehsal edilən məhsullar barədə ətraflı məlumat alıblar.

Görüşdə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev qonaqları salamlayaraq bildirib ki, "Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sistemlərinin İnkişafı Layihəsi" çərçivəsində muxtar respublikada həyata keçiriləcək işlərlə əlaqədar Asiya İnkişaf Bankı ilə Fransanın SOFRECO (Societe Francaise de Realisation d'Etudes et de Conseil) və Banqladeşin BETS Consulting Services LTD şirkətləri arasında 7 dekabr 2020-ci il tarixdə müqavilə bağlanıb. Müqavilənin şərtlərinə əsasən Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək layihələrə yerində baxışın keçirilməsi, texniki-iqtisadi əsaslandırmanın, topoqrafik xəritələrin, ətraf mühitə təsirin qiymətləndirilməsi, ilkin layihə-smeta sənədlərinin hazırlanması, sosial və gender sorğu, mühəndis-geoloji tədqiqat işlərinin aparılması və digər tədbirlər nəzərdə tutulub.

Qeyd olunub ki, Texniki Dəstək Qrupunun beynəlxalq və yerli mütəxəssisləri müəyyən vaxtlarda Naxçıvan Muxtar Respublikasında olublar. Layihə ərazilərinə səfərlər edilib və kanalların mövcud vəziyyətinə baxış keçirilib. Layihə ərazisində yerləşən kəndlərdə bununla bağlı maarifləndirmə işləri, sosial və gender sorğuları aparılıb. Texniki Dəstək Qrupunun mütəxəssisləri aidiyyəti nazirlik və komitələrdə mütəxəssislərlə görüşlər keçirib və lazımi məlumatları toplayıblar. "Faza-1" qiymətləndirmə hesabatını 2021-ci ilin sentyabr ayında təqdim ediblər. Layihələndirilməsi nəzərdə tutulmuş Bənəniyar gölünə suqətirən beton kanalın layihə-smeta sənədlərinin hazırlanması üçün topoqrafik işlər aparılıb və tikinti üçün geodeziya istinad məntəqələri quraşdırılıb. Layihə ərazilərində geoloji tədqiqat işləri görülüb.





Asiya İnkişaf Bankının missiya rəhbəri, su ehtiyatları üzrə baş mütəxəssis Yaozhou Zhou Naxçıvanda olmaqdan məmnunluq ifadə edərək bildirib ki, Azərbaycan ilə əməkdaşlıq 1999-cu ildən bəri dərinləşməkdədir. Bu əməkdaşlıqda Naxçıvan Muxtar Respublikasının da xüsusi yeri vardır. Asiya İnkişaf Bankı Naxçıvan Muxtar Respublikasında su şəbəkələrinin qurulması, torpaqların şoranlaşmasının azaldılması və kənd təsərrüfatında məhsuldarlığın artırılması sahəsində aparılan işlərə böyük töhfə verib. 6 fevral 2020-ci il tarixdə "Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sisteminin İnkişafı Layihəsi"nin hazırlanması üzrə texniki yardımın Azərbaycan Respublikası Hökumətinə təmin edilməsi təsdiq olunub, bu istiqamətdə işlər hazırda uğurla davam etdirilir. Bu görüşün də əsas məqsədi layihə çərçivəsində görülmüş işlər və qarşıda duran vəzifələri müzakirə etmək, fəaliyyət istiqamətlərini müəyyənləşdirməkdir. Layihənin hər iki tərəfə böyük töhfələr verəcəyinə ümidvar olduğunu bildirən Yaozhou Zhou Naxçıvan Muxtar Respublikasında bu sahədə yaradılan şəraiti, işlərdəki fəallığı yüksək qiymətləndirərək birgə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri Zahid Qənbərov çıxışında bildirib ki, Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən Naxçıvan şəhərində həyata keçirilmiş "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi 2018-ci ildə uğurla başa çatıb, Naxçıvan Muxtar Respublikası müxtəlif sahələr üzrə əməkdaşlığı davam etdirməkdə maraqlıdır. Qeyd edilib ki, ərazisinin 64 min 713 hektarı əkinəyararlı torpaqlardan ibarət olan muxtar respublika üçün kənd təsərrüfatı əhəmiyyətli və strateji sahədir. Torpaqlarda suvarma sisteminin qurulması və inkişafı da olduqca vacib məsələlərdəndir. Bu baxımdan suvarma və drenaj sistemləri ilə bağlı müzakirəsi aparılan, reallaşması nəzərdə tutulan bu layihə muxtar respublikanın inkişafına böyük töhfə verəcəkdir.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov çıxışında bildirib ki, aqrar sahə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında əsas rola və çəkiyə malikdir. Bu mənada, Asiya İnkişaf Bankı ilə birgə təşkil olunan layihələr həm iqtisadiyyata, həm də əhalinin məşğulluğuna böyük təsir göstərir. Yeni texnoloji metodlardan, suvarma sistemlərindən, məhsuldarlığın artırılması üçün keyfiyyətli toxum sortlarından, aqrotexniki qaydalardan istifadəyə üstünlük verməklə bu sahədə bir sıra işlər həyata keçirilib, uğurlara nail olunub. Mövcud torpaq sahələrində suvarma sistemlərinin qurulması gələcəkdə ərzaq təhlükəsizliyinin təmin olunmasına, əhalinin keyfiyyətli yerli məhsullardan istifadəsinə geniş imkanlar vəd edir. Asiya İnkişaf Bankı ilə birgə reallaşacaq bu layihə gələcəkdə muxtar respublikada quraqlıq problemlərinin qarşısını almaqla yanaşı, kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının da genişləndirilməsinə şərait yaradacaq.

Sonra "Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sistemlərinin İnkişafı Layihəsi" çərçivəsində 12 ekspertdən ibarət Texniki Dəstək Qrupunun rəhbəri Dinesh Kumar Shrestha Şərur, Babək, Culfa, Kəngərli, Sədərək rayonlarını əhatə edən layihənin 18 fəaliyyət istiqaməti üzrə görülmüş işlər barədə slayd vasitəsilə ətraflı məlumat verib. Görüş layihənin icrası ilə bağlı qarşıda duran məsələlərin müzakirəsi ilə davam edib.

**Nail ƏSGƏROV**

"Sənaye ili" – 2022

# Muxtar respublikada "Sənaye ili" çərçivəsində məqsədyönlü tədbirlər görülür

*Son illərdə dinamik iqtisadi inkişafı səciyyələndirən əsas cəhətlərdən biri muxtar respublikada sənayenin üstün inkişafının təmin edilməsi olmuş, sənaye quruculuğu sahəsində diqqətəlayiq uğurlar qazanılmışdır. Sənayenin ümumi daxili məhsul istehsalında xüsusi çəkisi 2004-cü ildəki 10,6 faizdən 2021-ci ildə 27,1 faizədək yüksəlmiş, muxtar respublikada 400-dən çox sənaye müəssisəsi fəaliyyətə başlamış, Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlər hesabına ümumi dəyəri 112 milyon 509 min manat olan 279 sənaye layihəsi maliyyələşdirilmişdir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2022-ci ilin "Sənaye ili" elan olunması bu sahədə işləri daha da genişləndirmiş, sənayeləşməni sürətləndirmişdir. Ali Məclis Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin "Sənaye ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nda prioritet istiqamətlər – sənaye potensialının, eləcə də sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi, ixracyönümlülüyün və rəqabətqabiliyyətliliyin təmin edilməsi, təbliğat və təşviqat işləri müəyyənləşdirilmişdir.

Bu istiqamətlərə uyğun olaraq cari ilin ötən dövrü ərzində müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, yerli xammala əsaslanan istehsal sahələrinin qurulması, keyfiyyətli və ixracyönümlü məhsul istehsalına nail olunması məqsədilə 67 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, yeni duz istehsalı müəssisəsinin, enerji içkilərinin, salfet, spirtli içki, yun iplik, kiçik kənd təsərrüfatı alətləri istehsalları sahələrinin yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Sənayedə həyata keçirilən dövlət dəstəyi tədbirləri, o cümlədən cari ilin ötən dövrü ərzində 10 layihənin maliyyələşdirilməsinə 4 milyon 775 min manat güzəştli kreditin verilməsi nəticəsində bir sıra sənaye məhsulu üzrə idxaldan asılılıq azalmış, bəziləri üzrə isə ixrac potensialı yaranmışdır.

Sənaye iqtisadiyyatın dinamik inkişaf edən və qlobal çağırışlara uyğun olaraq daim yenilənən, yeni yanaşma və mexanizmlərə açıq olan sahəsidir. Rəqabətqabiliyyətli və yüksək texnologiyalara əsaslanan sənaye istehsalının artırılması, elmtutumlu sənaye sahələrinin inkişafı məqsədilə yeni mexanizmlər tətbiq olunur. Bu baxımdan innovativ və müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye məhsulu istehsalının genişləndirilməsi, bu sahədə sahibkarlığın inkişafı məqsədilə Şərur Sənaye Məhəlləsinin yaradılması istiqamətində işlər aparılır.

Şərur Sənaye Məhəlləsində sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün zəruri olan xarici və daxili infrastruktur, o cümlədən elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri inşa edilmişdir.

Eyni zamanda, Sənaye məhəlləsində fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə qarşılıqlı əlaqədə olaraq onlara inzibati prosedurların sadələşdirilməsi, güzəştli kreditlərin verilməsi, gəlir vergisinə güzəştin tətbiq olunması kimi hüquqların müdafiəsi həyata keçiriləcəkdir.

İlk mərhələdə bitki yağı, kağız-paket və karton tara, ayaqqabı, mebel məmulatları istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən 4 layihə təqdim edilmişdir. Bu layihələr çərçivəsində 50 yeni iş yeri yaradılması nəzərdə tutulmuşdur ki, bu da rayonda məşğulluğun və əhalinin rifahının artırılmasına öz töhfəsini verəcəkdir.

Bunlarla yanaşı, Şərur rayonunun əmək ehtiyatları və təbii resursları nəzərə alınaraq məhəllədə süd emalı, meyvə-tərəvəzin konservləşdirilməsi, tomat, ofis ləvazimatları, corab istehsalı sahələrinin yaradılması məqsədilə iqtisadi cəhətdən əsaslandırılmış layihələr hazırlanmış və bu sahələr üzrə sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi istiqamətində işlər həyata keçirilməkdədir.

Bununla yanaşı, məhəllədə kiçik sahibkarlıq subyektləri və ailə təsərrüfatları tərəfindən yaradılması məqsədəuyğun hesab edilmiş arıçılıq məhsullarının qablaşdırılması, şirniyyat istehsalı, tekstil məhsulları və digər kiçik istehsal sahələri üçün də yerlər müəyyən edilmişdir. Dövlətin güzəşt və qayğısı ilə əhatə olunmuş məhəllədə bu sahələrin qurulması gələcəkdə təsərrüfatların gəlirlərinin daha da artırılmasına, ixrac imkanlarının genişlənməsinə şərait yaradacaqdır.

Bu mühüm layihənin reallaşması muxtar respublikanın sosial-iqtisadi inkişafına təsir göstərməklə yanaşı, həm də sənayenin şaxələndirilməsinə dəstək olacaqdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Azərbaycan milli teatr tarixinə parlaq və şərəfli səhifələr yazmış Naxçıvan teatrının yaradılmasının 139-cu ildönümü tamam olur. Bu münasibətlə mayın 11-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında tədbir keçirilib.***

# Naxçıvan teatrının yaradılmasının ildönümü qeyd edilib





Tədbiri Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, Azərbaycanda ilk peşəkar teatrın yaranmasından 10 il sonra – 1883-cü il mayın 11-də böyük mədəniyyət və ziyalılar yurdu olan Naxçıvanda da onun əsası qoyulub. 1883-cü ildə fəaliyyətə başlamış teatrın təşəkkülü və inkişafında ölkəmizin görkəmli ədəbiyyat və incəsənət xadimləri – Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Bəhruz Kəngərli, Məhəmməd Tağı Sidqi, Eynəli bəy Sultanov və digərləri yaxından iştirak ediblər.

Qeyd olunub ki, XX əsrin 20-ci illərində Naxçıvan teatrı yeni inkişaf mərhələsinə qədəm qoyub, Naxçıvan aktyorları vahid truppada birləşib və 1922-ci ildə Dövlət Dram Teatrı yaradılıb. Bu illər ərzində teatr tərəfindən müxtəlif səpkili əsərlər uğurla səhnələşdirilib.

Vurğulanıb ki, bu gün muxtar respublikada teatrların fəaliyyətinə hərtərəfli dövlət qayğısı göstərilir. Hazırda muxtar respublikada Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı fəaliyyət göstərir.

Zəngin tarixi inkişaf dövrü keçmiş Naxçıvan teatrının müstəqillik illərində yaradıcılıq axtarışları genişlənib, kollektivlər tamaşaları ilə teatrsevərlərin rəğbətini qazanıb. Naxçıvan teatrının yarandığı gündən bu günədək uğurlu fəaliyyəti və inkişafı daim dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib, bu ilin 27 aprel tarixində, teatrın dövlət statusu almasının 100 illiyi ərəfəsində ona "milli" statusu verilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə son illər ərzində Naxçıvan teatrının yarandığı gündən bu günə kimi keçdiyi inkişaf yolunun tədqiqi, kadr hazırlığı ilə də bağlı bir sıra uğurlu işlər həyata keçirilib. Muxtar respublikada teatr sənətinə könül verənlərin əməyi də dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib, yaradıcı insanlar fəxri adlara, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülüblər.

Çıxışının sonunda nazir Naxçıvanda teatrın inkişafına daim yüksək diqqət və qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova muxtar respublikanın teatr ictimaiyyəti adından dərin minnətdarlığını bildirib, bu əlamətdar gün münasibətilə bütün teatrsevərləri təbrik edərək onlara milli mədəniyyətin inkişafı yolunda uğurlar arzulayıb.

Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru Rza Xudiyev çıxış edərək bildirib ki, zəngin tarixi inkişaf dövrü keçmiş Naxçıvan teatrının müstəqillik illərində yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, kollektiv milli dəyərlərimizin peşəkar təbliğatçısına çevrilib. Bu illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrı Azərbaycanda və müxtəlif xarici səfərlərdə öz tamaşaları ilə teatrsevərlərin rəğbətini qazanıb.

Qeyd edilib ki, teatr repertuar zənginliyini daim diqqət mərkəzində saxlayır, klassik və müasir dramaturgiyanın dəyərli nümunələrindən, dünya klassiklərinin əsərlərindən tamaşalar hazırlayır.

Sonra Karel Çapekin "Ana" əsəri əsasında hazırlanan eyniadlı tamaşa nümayiş olunub. Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Həcərxanım Məmmədova, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur. Rolları Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli, digər aktyorlar Zəminə Məmmədova, Ələsgər Quliyev, Səyyad Məmmədov, Məmməd Mehdiyev, Uğur Nəsirli və Nurlan Sultanlı yüksək ustalıqla ifa ediblər.

Tamaşa teatrsevərlər tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# İnformasiya təhlükəsizliyinin təminatı üzrə seminar-müşavirə



Naxçıvan Şəhər Orta İxtisas Polis Məktəbində keçirilən seminar-müşavirəni giriş sözü ilə açan məktəbin rəisi, polis polkovniki Kamil Məmmədəliyev qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 6 aprel 2022-ci il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası dövlət qurumlarında informasiya təhlükəsizliyinin təminatı üzrə nümunəvi təlimat təsdiq edilib. Həmin qərardan irəli gələn tələblərin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kollegiyasının 15 aprel 2022-ci il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində informasiya təhlükəsizliyinin təminatı üzrə təlimat" təsdiq edilib. Təlimat daxili işlər orqanlarında informasiya təhlükəsizliyinin təşkili və təmin edilməsi, struktur qurumlar və əməkdaşlar üçün bu sahədə məcburi tələbləri müəyyən edir. Keçirilən seminar-müşavirədə informasiya təhlükəsizliyi sahəsində daha geniş məlumatlandırma məqsədi daşıyır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İnformasiya-kommunikasiya şöbəsinin rəisi, polis polkovnik-leytenantı Kənan Məmmədov informasiya texnologiyalarının həyatımızdakı əhəmiyyətindən, informasiya təhlükəsizliyinin qorunması və vacib tələblərin yerinə yetirilməsi mövzusunda məlumat verib.

Sonra tədbir iştirakçıları elektron hökumət, elektron imza, asan imza, biometrik imza, kiber təhlükəsizlik, informasiya təhlükəsizliyi, məxfi məlumat və digər mövzular barədə məlumatlandırılıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**✍ Məcid RƏŞADƏTOĞLU**

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi keçirilib





Ordumuzun yüksək döyüş hazırlığı və güclü maddi-texniki bazaya sahib olması dünya hərb tarixində silinməz iz qoyan Vətən müharibəsində möhtəşəm qələbəmizi şərtləndirən əsas amillərdən oldu. Bütün dünya gördü ki, Azərbaycan Ordusunun arsenalı ən müasir silah və döyüş texnikaları ilə zəngindir. Həmçinin istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan komandirləri, döyüş meydanında şücaət və igidlik nümayiş etdirən əsgərləri var.

44 günə düşməni darmadağın edərək torpaqlarımızı işğaldan azad edən rəşadətli Ordumuzun şəxsi heyəti qələbədən sonra da təlim-məşqlərdə daha böyük həvəslə iştirak edir, döyüş hazırlığını durmadan artırır, daim zəfər ovqatına köklənir.

Naxçıvan Qarnizonu Qoşunlarında da Vətən müharibəsindən sonra qazanılan təcrübələri şəxsi heyətə aşılamaq, qərargahların və şəxsi heyətin döyüş bacarığını təkmilləşdirmək məqsədilə keçirilən təlimlər davam edir. "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən növbəti komanda-qərargah təlimində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün birləşmə və hissələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb.

Təlimin ikinci mərhələsində qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar idarəetmə məntəqələrində xəritələr üzərinə işlənilib, qəbul edilmiş qərarlar rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə praktik fəaliyyətlərə cəlb olunmuş bölmələrə çatdırılıb.

Qoşunların cəmləşmə rayonlarında, atəş və start mövqelərində yerləşməsi, eləcə də döyüş fəaliyyətlərinin gedişi zamanı aviasiya və artilleriya bölmələrinin ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyəti praktik olaraq məşq etdirilib. Hava hücumundan müdafiə bölmələri düşmənin aviasiya vasitələrinin aşkarlanması, izlənməsi və məhv edilməsi üzrə praktik fəaliyyət göstərib.

Təlimdə minaatan, mexanikləşdirilmiş və tank əleyhinə bölmələr tərəfindən şərti düşmən hədəfləri məhv edilib.

Təlimə cəlb edilmiş xüsusi təyinatlı bölmələrə təxribat hazırlığında olan şərti düşmənin terror qruplaşmasının zərərsizləşdirilməsi tapşırığı verilib. Qərargahlar tərəfindən verilmiş tapşırıqlar 44 günlük Vətən müharibəsində qazanılan döyüş təcrübəsinin tətbiqi ilə icra edilib.

Xüsusi təyinatlılarımız minalanmış və çətin relyefli ərazilərdən, dağ aşırımlarından keçərək şərti düşmənin terror qruplaşmalarının yerləşdiyi obyektə koordinasiyalı irəliləmə ilə yaxınlaşıblar. Vizual müşahidə və havadan kəşfiyyat aparmaqla düşmən obyekti qiymətləndirilib və basqın fəaliyyəti icra edilib. Çətin dağlıq şəraitdə aparılan antiterror əməliyyatı zamanı qarşıya qoyulan məqsədlərə nail olunaraq şərti düşmənin terror təxribatının qarşısı alınıb.

Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində keçirilən təlimin sonuncu mərhələsində qarşıda duran tapşırıqların kompüter üzərində məşqi icra edilərək fəaliyyətlərin nəticələri təhlil edilib.

Komanda-qərargah təliminin sonunda müxtəlif qoşun növü birləşmələrinin qarşılıqlı fəaliyyəti və komandirlərin yaranmış şəraitə uyğun olaraq qısa zamanda doğru qərar qəbuletmə bacarıqları yüksək qiymətləndirilib, qazanılan təcrübələrin növbəti təlimlərdə də tətbiq edilməsi barədə müvafiq tapşırıqlar verilib.

**Kənan CƏLİLOV**

# Güləş üzrə muxtar respublika turniri başa çatıb




*Mayın 11-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş yeniyetmələr arasında (2005-2007-ci illər) sərbəst güləş üzrə "Heydər Əliyev kuboku" uğrunda Naxçıvan Muxtar Respublika turnirinin yekun tədbiri keçirilib.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov turnirin açılış mərasimində ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ehtiramını bildirib, ulu öndərin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika turnirinin iştirakçılarını salamlayaraq deyib ki, Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin ölkəmizə rəhbərliyi dövründə digər sahələrdə olduğu kimi, idmanın da inkişafı diqqətdə saxlanılıb. Bu sahədə maddi-texniki baza yaxşılaşdırılıb, yeni idman kompleksləri tikilib, idman-sağlamlıq mərkəzləri yaradılıb. Ümummilli liderin gənclər və idman siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, idmançılarımız beynəlxalq yarışlarda uğurla çıxış edirlər.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılır. İdmanın inkişafına göstərilən dövlət qayğısı, yaradılan idman obyektləri gənclərin idmana olan marağını artırıb və nəticədə, istedadlı idmançıların yetişməsinə şərait yaradıb. Müasir idman infrastrukturunun, eləcə də perspektivli idmançıların mövcudluğu muxtar respublikada mötəbər səviyyəli idman yarışlarının keçirilməsinə imkan verir.

Azər Zeynalov muxtar respublikada idmanın inkişafına göstərdiyi diqqət və qayğıya görə turnir iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıq edib.

Tədbirdə gənclər və idman naziri Ramil Hacı çıxış edərək muxtar respublikada idmanın inkişafı, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili sahəsində görülən işlərdən danışıb.



Gənclər və idman naziri milli idmanın inkişafında misilsiz xidmətlərə malik ümummilli lider Heydər Əliyevə həsr olunmuş növbəti turnirin uğurla keçirilməsi münasibətilə idmançıları təbrik edib, yaradılan şəraitə görə idman ictimaiyyəti adından muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirin bədii hissəsində Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının idmançısı Günəş Hüseynovanın və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançılarının nümunəvi çıxışları olub.

Ardınca final görüşlərinə start verilib. 6 komandanın 100-dən çox idmançısının 10 çəki dərəcəsində olimpiya sistemi üzrə mübarizə apardığı turnirin yekun nəticəsinə əsasən Elmir Əsgərov (45 kiloqram), Sadiq Kərimov (48 kiloqram), Nicat Ocaqquliyev (51 kiloqram), İlkar Əlican (55 kiloqram), Əmrə Ağayev (60 kiloqram), Eldar Abdullayev (65 kiloqram), Samir Bağırzadə (71 kiloqram), Daşqın Rəsulov (80 kiloqram), Süleyman Məmmədov (92 kiloqram) və Cəfər Heydərov (110 kiloqram) qalib adını qazanıblar.

Komanda hesabında isə turnirin baş mükafatını "Naxçıvan" komandası qazanıb.

Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıb.

**"Şərq qapısı"**

# Türkiyə universitetlərinin rektorları Naxçıvan Dövlət Universitetində

Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı, beynəlxalq əlaqələr ofis koordinator köməkçisi, professor Ali Çağlar Güllücə, Van Yüzüncü İl



Universitetinin rektoru, professor Həmdullah Şevli və universitetin prorektoru Sabahattin Şevgin Naxçıvana gəliblər. Səfər çərçivəsində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edən qonaqlar abidə önünə gül dəstələri qoyaraq hörmət və ehtiramlarını ifadə ediblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev 10 may 1999-cu ildən fəaliyyət göstərən müəssisəsi, burada sərgilənən nadir tarixi eksponatlar haqqında ətraflı məlumat verib. Dünya şöhrətli siyasi xadim Heydər Əliyev və Mustafa Kamal Atatürkün həyat yolu və siyasi fəaliyyəti ilə bağlı oxşar məqamlar qonaqlarda böyük maraq doğurub. Türkiyəli qonaqlar muzeyin xatirə kitabına ürək sözlərini yazıblar.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qardaş ölkənin rektorları ilə keçirilən görüşdə qonaqları salamlayıb, rəhbərlik etdiyi universitetin əməkdaşlıq əlaqələrində hər iki universitetin xüsusi rolu olduğunu qeyd edib. Bildirilib ki, bu tarixi ənənə Ərzurum Atatürk Universiteti ilə 1992-ci ildən, Van Yüzüncü İl Universiteti ilə 1998-ci ildən başlanıb. Vurğulanıb ki, rəhbərlik etdiyi ali təhsil ocağı ilə Türkiyənin 130-dan artıq universiteti arasında beynəlxalq əməkdaşlıq müqavilələri imzalanıb. Universitetin 55 illik tarixi inkişaf yolu, maddi-texniki bazası, müasir tədris üsulları haqqında məlumat verən Elbrus İsayev qeyd edib ki, ali təhsil ocağı elmi-tədqiqat istiqaməti araşdırmalara üstünlük verməklə gələcək hədəflərini müəyyənləşdirir.

Türkiyənin Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı yüksək qonaqpərvərlikdən məmnunluq ifadə edib. Bildirib ki, Türkiyənin ən qədim yeddi universitetindən biri olan Atatürk Universitetinin xəstəxanası Şərqi Anadolu və Şərqi Qaradəniz üçün önəmli səhiyyə mərkəzi roluna sahibdir. Vurğulanıb ki, bu ali təhsil ocağı Türkiyənin 20 araşdırma universitetləri sırasında yer alır.

Van Yüzüncü İl Universitetinin rektoru, professor Həmdullah Şevli bu il 40-cı ildönümünü qeyd edən ali təhsil ocağında mövcud ixtisaslar və universitetin gələcək perspektiv imkanları haqqında məlumat verib.

Görüşdə beynəlxalq akkreditasiya qaydaları, Erasmus+, Mövlana proqramları çərçivəsində müəllim və tələbə mübadiləsi, kənd təsərrüfatı, meliorasiya və turizm sahəsində təcrübə əldə etmək, doktorantura, qida mühəndisliyi, zootexnik sahəsi üzrə araşdırma mərkəzlərinin birgə fəaliyyətinə dair müzakirələr aparılıb.

Tədbirdə bu ilin yayında Naxçıvan Dövlət Universitetində keçirilməsi nəzərdə tutulan beynəlxalq tibb forumunda hər iki universitetin iştirakı barədə razılığa gəlinib. Naxçıvan Dövlət Universiteti ilə hər iki universitet arasında qarşılıqlı protokol aktı imzalandıqdan sonra qarşılıqlı hədiyyələr təqdim edilib, rektorlar universitetin xatirə kitabına ürək sözlərini yazıblar. Sonra qardaş ölkənin rektorları ali təhsil ocağının İncəsənət fakültəsi və Musiqi Kollecinin hazırladığı, Azərbaycan və türk musiqilərindən ibarət konsert proqramını izləyiblər. Qeyd edək ki, qonaqlar səfər çərçivəsində Naxçıvanın gəzməli yerlərini ziyarət ediblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı və Van Yüzüncü İl Universitetinin rektoru, professor Həmdullah Şevlinin muxtar respublikamızla, habelə Naxçıvan Dövlət Universiteti ilə bağlı maraqlı müsahibələrini "Şərq qapısı" qəzeti oxucularına təqdim edirik:*



İlk müsahibimiz olan ***Van Yüzüncü İl Universitetinin rektoru, professor Həmdullah Şevli*** Naxçıvan Dövlət Universitetinin beynəlxalq təhsil arenasında, habelə qardaş Türkiyə Respublikasında tanıdılmasında və bu ali təhsil ocağı ilə apardıqları çoxşaxəli əməkdaşlıqdan söhbət açaraq deyir:

– Qardaş Azərbaycan Respublikasının ən qədim mədəniyyət ocaqlarından biri olan Naxçıvan şəhəri dünyanın bir çox regionlarında tanınır və sevilir. Təmsil etdiyimiz ali təhsil ocağının yerləşdiyi Van şəhəri də Naxçıvana yaxın olmaqla bərabər, həm də türk xalqının ən qədim sivilizasiya məskənlərindən biridir. Qeyd etmək lazımdır ki, Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında geniş siyasi, ictimai əlaqələrin tarixi də minilliklərə söykənməkdədir. Bu şəhərə ilk dəfədir, səfər edirəm. Naxçıvanın rəngarəng və maraqlı mühiti, qonaqpərvər insanları, o cümlədən savadlı tələbə-gəncləri bizi heyrətləndirdi. Səfərimiz çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə yaxından tanış olduq, regionun ən prestijli ali təhsil müəssisəsi haqqında geniş məlumat əldə etdik. Rektor Elbrus İsayevlə olan söhbətimizdə öyrəndik ki, Naxçıvan Dövlət Universitetində beynəlxalq əlaqələrin genişləndirilməsi, dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələri ilə səmərəli əməkdaşlığın təşkili sahəsində aparılan məqsədyönlü işlər hər zaman öz müsbət nəticələrini göstərir. Xarici tələbələrin sayına görə Azərbaycan ali təhsil müəssisələri sırasında öncüllüyünü qoruyan universitetdə 10 ölkədən 1000-ə yaxın əcnəbi tələbə təhsil alır. Ən böyük üstünlüyü isə Türkiyənin tələbə-gənclərinin təşkil etməsi həm bizi qürurlandırdı, həm də çox sevindirdi. Müasir dövrümüzdə, qloballaşan dünyada milli mədəniyyət, tarixi və etnik köklərin birliyi ilə bir-birinə bağlı olan Azərbaycan Respublikası və Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlıq və bərabərlik nümayiş etdirirlər. Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində Türkiyə Respublikasının özünəməxsus yeri vardır. Belə ki, dünyanın 130-dan çox ölkəsi ilə beynəlxalq əməkdaşlığa malik olan universitetin Türkiyənin 80-dək ali təhsil ocağı ilə qarşılıqlı əlaqələri mövcuddur. Bu, təbii ki, qardaş ölkə və Türkiyə arasındakı təhsil uğurlarının ən gözəl nəticəsi, gələcək uğurlu əməkdaşlıqların əsasıdır. Hər sahədə əməkdaşlıq üçün imkanlar açan dil, din birliyi, ortaq ənənələr və xalqlar arasındakı qardaşlıq münasibətləri türkiyəli tələbələrin Naxçıvan Dövlət Universitetini seçməsi üçün xüsusi imkanlar yaradır. Xarici ölkəyə təhsil üçün üz tutan əcnəbi tələbələr arzuladıqları humanitar-mədəni mühiti məhz qardaş ölkənin müasir şəhəri olan Naxçıvan Muxtar Respublikasında tapa bilir. Burada mövcud olan sabitlik, tərəqqi və yüksək sosial-iqtisadi inkişaf, habelə yenilikçi ideyaların yaşadılması bizim bu muxtar respublikanı seçib onunla təhsil sahəsindəki əlaqələrimizi də labüd edir. Bu hal həm biz müəllimlərin, həm də Naxçıvana üz tutan hər bir xarici tələbənin ürəyincə olur.



"Naxçıvan Dövlət Universiteti ilə Türkiyə universitetləri arasındakı sabit əməkdaşlıq gələcək uğurlarımızın ən gözəl təminatçısı olacaq", – deyən müsahibimiz, ***Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı*** qeyd edir ki, modernləşmə yolunda inamla addımlayan Naxçıvan Dövlət Universiteti ilə yaratdığımız qarşılıqlı, faydalı tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi yaxın gələcəkdə universitetlərimizin beynəlxalq imicinin güclənməsinə və xarici əlaqələrin yüksələn xətlə inkişafına təkan verəcək. Əlbəttə ki, bütün bunlardan qazanan isə həm muxtar respublikanın, həm də Türkiyə Respublikasının ali təhsil ocaqlarının təhsil strategiyası olacaq. Bir məqamı xüsusi vurğulamaq istərdim ki, bizim Naxçıvana, o cümlədən diyarın ən prestijli ali təhsil ocağına olan səfərimiz təsadüfi deyil. Təhsil elə bir sahədir ki, burada atılan hər bir addım yüz ölçülüb, bir biçilməli, müsbət və mənfi çıxarlar və nəticələr nəzərə alınmalıdır. Bu yolda gələcək davamçılarımız olan gənclərimiz cidd-cəhdlə çalışır, səy göstərirlər. Bizim də yeganə amalımız, məqsədimiz onlara dəstək göstərmək, hər zaman yanlarında olmaqdır. Təbii ki, bu yolda ən böyük fədakarlıq onlara rahat təhsil alacağı, oxuyub inkişaf edəcəyi bir elm yolu, tərəqqi institutu vədini verməkdir. Bizim Naxçıvan Dövlət Universitetinə etdiyimiz tarixi səfər də bu amala xidmət edir. Bu mənim Naxçıvana ikinci səfərimdir. Hələ ilk səfərimdə öyrənmişdim ki, bu ali təhsil ocağında oxuyan xarici tələbələrin böyük bir qismini türk tələbə-gənclər təşkil edir.



Naxçıvan, həqiqətən, çox maraqlı bir şəhərdir. Təmiz küçələr, abad yollar, geniş park və xiyabanlar ilk görüşdən insanı özünə cəlb edir. Bu diyarın insanları da tamam fərqli bir cazibəyə malikdirlər. Hər iki səfərimdə heç bir özgəlik hiss etməmişəm. İstər milli mətbəx nümunələri olsun, istər tanıdığım, münasibətdə olduğum insanlar olsun, insana çox müsbət aura yaşadır. Səfər proqramı çərçivəsində fürsət əldə edib "Duzdağ" Fizioterapiya Mərkəzi və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə yaxından tanış olduq. Yolboyu seyr etdiyim mənzərələr Naxçıvanla bağlı yüksək təəssürat yaratdı. Gördük ki, Naxçıvan necə müasir və inkişaf səviyyəsi yüksəkdə olan bir şəhərdir. Bizə yolboyu bələdçilik edən naxçıvanlı qardaşlarımız yeni-yeni faktlar barədə danışdılar. Öyrəndik ki, Naxçıvanın havası, suyu təmiz olan, hərtərəfli şəraitə və özünəməxsus müsbət auraya malik kənd və qəsəbələri abadlaşdırılaraq bir cazibə məkanına çevrilir. Məhz bunun nəticəsidir ki, Naxçıvan muxtar diyarı Azərbaycan şəhərləri sırasında bir çox müsbət keyfiyyətlərinə görə lider mövqedə dayanıb. Bu mövqenin fövqündə isə bizi bura cəlb edən təhsil siyasəti aparıcı rol oynamaqdadır. Naxçıvandan qayıtdıqdan sonra da əlimizdən gəldiyi qədər həmvətənlərimizə burada bizim üçün yaradılan geniş şərait barədə ətraflı məlumat çatdıracağıq. İnanıram ki, istər təhsil sahəsində, istərsə də bu və ya digər sahələrdəki əməkdaşlığımız daha gözəl xarakter alacaqdır. Göstərilən qonaqpərvərliyə və diqqətə görə minnətdarlığımı bildirirəm.

**✍ Məcid RƏŞADƏTOĞLU**

*“Siz bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq, həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə – insanların sağlamlığının qorunması işinə həsr etmisiniz. Əhalinin sağlamlığının mühafizəsi və tibbi xidmətin yaxşılaşdırılması istiqamətində irəliyə doğru atdığınız addımlar və əldə etdiyiniz uğurlar bizi sevindirir”.* *Bu fikirlərdə ulu öndərin milli səhiyyəmizin inkişafına yönələn diqqət və qayğısı, həkimlərimizə olan sevgi və məhəbbəti, bu peşənin müqəddəsliyi, məsuliyyəti açıq şəkildə öz əksini tapır. Bu gün Azərbaycan həkimi tibbin bütün sahələrində öz sözünü deyir, dahi rəhbərin ona olan inamını doğruldur. Onlar öz peşəkar fəaliyyətləri ilə gecə-gündüz, uzaq-yaxın demədən vətəndaşlarımızın sağlamlığının qeydinə qalır, onlara təmənnasız tibbi yardım edirlər. Artıq ənənə halını alan humanitar aksiyalardan – bu xeyirxah, nəcib işdən muxtar respublikamızda yararlananların sayı az deyil. Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Naxçıvan Diaqnostika Müalicə Mərkəzində keçirdiyi humanitar tibbi aksiyada 23 nəfərdən ibarət yüksəkixtisaslı həkim heyəti iştirak edib. Onlarla görüşüb, həmsöhbət olub, təəssüratlarını qəzetimiz vasitəsilə çoxsaylı oxucularımıza da çatdırmaq istədik.*

# Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır

## Bu gün muxtar respublikada bu prinsip əsas götürülür

Humanitar tibbi aksiyalar əhalinin sağlamlığının qorunmasında mühüm vasitədir fikri ilə söhbətə başlayan ***Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının direktoru, həkim-cərrah Azər İsmayılov*** dedi: – Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, heyətimiz ilk olaraq Naxçıvan şəhərinin mərkəzində müstəqil Azərbaycanımızın qurucusu, memarı olan ulu öndərimizin əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə tər gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsini ehtiramla yad etməyi, onun şərəfli ömür yolunu, siyasi fəaliyyətini əks etdirən Heydər Əliyev Muzeyində olmağı özünə mənəvi borc bildi. Ulu öndərin müdrik ideyalarının davamıdır ki, bu gün tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Prezidentimiz cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu səhiyyə sistemində də layiqincə davam etdirir. Son illərdə muxtar respublikada səhiyyənin inkişafı, yaradılan müasir struktur, təcrübəli kadrların formalaşması dövlətimizin insan amilinə diqqət və qayğısından xəbər verir.

Həkim onu da bildirdi ki, belə tədbirlər, elmi-nəzəri təcrübə mübadiləsi aparmaqla, müayinə və müalicəni daha əlçatan etməklə yanaşı, muxtar respublikadan kənarda öz dərdinə əlac axtaran insanların da sayını azaldır.

Muxtar respublikanın müxtəlif səhiyyə ocaqlarında humanitar aksiyalarda iştirak etdiyini vurğulayan həkim onu qeyd etdi ki, hər səfər zamanı Naxçıvanın təkcə səhiyyə baxımından deyil, ümumilikdə, bütün sahələrdə inkişafını görmək, muxtar respublikada tibbi xidmətin səviyyəsi ona böyük qürur yaşadır.

***Xəstəxananın direktor müavini Telman İbadov***: – Bu gün diyarda əhalinin sağlamlığının qorunması istiqamətində aparılan səhiyyə islahatları öz bəhrəsini verir. Hər dəfə doğma yurduma gələndə, buradakı şəraiti görəndə 1993-cü ildə Ordubad rayonunda ilk həkimlik fəaliyyətimə başladığım günləri xatırlayıram. Həmin illərdə yenicə müstəqillik qazanan respublikamızda gənc həkimlər üçün yaradılan imkanlar bugünkü qədər ürəkaçan deyildi. Şəraitsiz xəstəxanalarda işləyirdik. Muxtar respublikanın sərhədlərində döyüş gedirdi. Hər kəs dahi rəhbərə böyük ümid bəsləyirdi. İllər keçdikcə ulu öndərin siyasi gücü, uzaqgörənliyi ilə hər sahədə yeniliklərə, irəliləyişlərə imza atıldı. Səhiyyə də bu inkişafdan öz payını aldı. Bu gün müasir Naxçıvanın yüksəksəviyyəli səhiyyə ocaqlarını görəndə qürur hissi keçirirəm. Sevinirəm ki, illər öncə çalışdığım xəstəxana müasir görkəmə bürünüb. Ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa əhalinin sağlamlığının qorunmasına xidmət edir. Dahi rəhbərin doğum günü ərəfəsində burada olmaq və doğma insanların sağlamlığının keşiyində dayanmaq qürurunu yaşamaq hissi qədər gözəl heç nə ola bilməz. Bu nəcib işi görməyimiz üçün belə yüksək şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.



***Diaqnostika Müalicə Mərkəzinin baş həkim əvəzi Mətanət Səfərova***nın dediklərindən:

– Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının iştirakı ilə keçirilən aksiyalar artıq ənənə halına çevrilib. Belə aksiyalar insanların sağlamlığına xidmət etməklə yanaşı, həm də yerli həkimlərin peşə və bacarıqlarının yüksəldilməsinə stimul yaradır. Nəticədə, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə mürəkkəb cərrahiyyə əməliyyatları aparılmasına nail olunur, yeni tibbi metodlar öyrənilir. Bakı şəhərindən muxtar respublikamıza dəvət olunan yüksəkixtisaslı mütəxəssislər tərəfindən humanitar tibbi aksiyaların keçirilməsi aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatlarının həyata keçirilməsi onlara həm maddi, həm də mənəvi baxımdan böyük dəstəkdir.

Mətanət həkim onu da bildirdi ki, bu aksiyada xəstəxanamızın tibb personalı da fəal iştirak edir.

***Onurğa cərrahı Kamil Eyvazov***la da həmsöhbət olduq, Naxçıvana ilk dəfədir, gəldiyini söyləyən həkim dedi: – Xalqımızın xilaskarının dünyaya gəldiyi torpaqda olmaq, dahi rəhbərin 99 illiyi münasibətilə keçirilən aksiyada iştirak etmək şərəfinə nail olduğum üçün sevincliyəm. Səhiyyə ocağındakı müasir tibbi avadanlıqlar burada heç bir çətinlik çəkmədən işləməyə şərait yaratdı. Bu şəhərdə ilk andan bəri diqqətimi təmizlik çəkdi. Naxçıvan qonaqpərvər, səmimi insanları, gözəl təbiəti olan, tarix və müasirliyin vəhdətində inkişaf edən bir diyardır.

Digər bir qonaq ***həkim-cərrah Samir Aslanbəyli*** ilə əməliyyat sonrası söhbət etmək imkanımız oldu. Dəfələrlə humanitar aksiyalara qoşulmaq üçün diyarımıza gəldiyini söyləyən həkim dedi: – Muxtar respublikada savadlı kadrların və belə müasir xəstəxanaların olması sevindirici haldır. Blokada şəraitində yaşamasına baxmayaraq, inkişafın yüksək mərhələsində olan Naxçıvanda dünyanın müxtəlif ölkələrinə təkmilləşdirmə kurslarına göndərilmiş peşəkarlaşmış gənc həkimlər və ən müasir tibbi aparatlar mövcuddur. Burada ən kritik hallardan tutmuş, müxtəlif təyinatlı planlı və planlaşdırılmamış cərrahi əməliyyatları aparmaq üçün həkimlərin hər cür imkanı var. Əməliyyatlarda iştirak edən yerli tibbi heyət də bacarıqlı və işini biləndir.

Şəhid Elçin Əsgərovun anası, ***Kəngərli rayonunun Qıvraq qəsəbə sakini Fəxriyyə Əsgərova*** nəvəsini göz müayinəsinə gətirmişdi. O dedi: “Oğlum Şuşa uğrunda gedən döyüşlərdə şəhadətə yüksəlib. Həmin gündən dövlətimizin qayğısı ilə əhatə olunmuşuq. Hər zaman hansı təşkilata, eləcə də səhiyyə ocaqlarına üz tutsaq, diqqət, hörmət görürük. Bu gün həkimlər nəvəmi göz müayinəsi edib məsləhətlər verdilər. Tanrı dövlətimizi qorusun. Övladlarımızın qanı, canı bahasına qaldırılan bayrağımız daim ucalarda dalğalansın”.

***Naxçıvan şəhər sakini Validə Səfərova***nın ürəyi minnətdarlıq hissi ilə dolub-daşırdı. Onun dediklərindən: – Muxtar respublikamızdakı xəstəxanalarda hər cür şərait var, həkimlər də əlindən gələni edir hər zaman. Bu gün buraya gözlərimi müayinəyə gələndə Bakı şəhərindən də qonaqlarımız olduğunu eşitdim. Sağ olsunlar, gözlərimi müayinə etdilər. Əməliyyat olundum. Gözlərimin nuru özünə qayıtdı. Allah bu şəraiti yaradanlardan razı olsun.

Onu da qeyd edək ki, belə humanitar aksiyalar muxtar respublikanın səhiyyə müəssisələri tərəfindən də müntəzəm olaraq həyata keçirilir. Öyrəndik ki, Naxçıvan Muxtar Respublika Xəstəxanası ulu öndər Heydər Əliyevin anadan olmasının 99 illiyi münasibətilə Şahbuz və Culfa rayonlarında, xəstəxananın özündə humanitar tibbi aksiya keçirib. Heyətə daxil olan yüksəkixtisaslı həkimlər şəhid



ailələri, qazilər və qazi ailələrinin, aztəminatlı ailələrin, eləcə də müraciət edən hər bir vətəndaşın müayinə və müalicələrini pulsuz təşkil edib və müvafiq tibbi təyinatlar veriblər. Şahbuz Rayon Mərkəzi Xəstəxanasında keçirilən aksiyadan 115, Culfa rayonunda 51, Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən tibbi aksiyadan isə 15 nəfər yararlanıb.

*İnsanlara sevinc bəxş edən, xeyirxah, şəfqət, mərhəmət dolu bu tədbirlərdən biz də sevinc hissləri ilə ayrıldıq. Körpəsi qucağında sevinclə, gülə-gülə evinə qayıdan anaya, gözlərinə nur gəldiyi üçün ürəyi minnətdarlıq hissi ilə dolub daşan yaşlı ataya, qürurla başını qaldırıb yüksəklərdə dalğalanan bayrağımıza baxan qaziyə, burada atası cisman yanında olmasa da, dayılarının, əmilərinin, xalalarının şəfalı əlləri ilə sağlamlığına qovuşan şəhid övladına baxdıqda fikirləşirsən ki, dahi rəhbərin Naxçıvanla bağlı bütün arzuları gerçəkliyə qovuşub.*

**✍ Ramiyyə ƏKBƏROVA**

# Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyinə ilk qəbul imtahanı olub

Muxtar respublikada uğurla həyata keçirilən təhsil siyasətinin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 4 avqust tarixli Sərəncamı ilə Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey yaradılıb.



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə 2022-2023-cü tədris ili üzrə Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyə ilk dəfə olaraq qəbul imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün mart ayının 4-dən aprelin 25-dək aparılmış sənəd qəbulunda ümumtəhsil məktəblərinin VII-VIII siniflərini bitirən şagirdlər qeydiyyatdan keçib. Ümumilikdə, imtahanda 632 şagird iştirak edib.

5 nömrəli tam orta məktəbdə keçirilən imtahan saat $10^{00}$-da başlayıb. İmtahanda şagirdlərə Azərbaycan dili, riyaziyyat, fizika, ingilis dili, kimya, biologiya, coğrafiya, tarix fənləri üzrə, ümumilikdə, 100 sual təqdim olunub. Sualların cavablandırılması üçün şagirdlərə 3 saat vaxt ayrılıb.

Qəbul imtahanlarının cavabları həmin gün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin İmtahan Mərkəzi tərəfindən yoxlanılaraq elan olunub.

Qeyd edək ki, muxtar respublika üzrə ən yüksək nəticə göstərən 120 şagird liseyə qəbul olunacaqdır.

Müasir tədris vasitələri ilə təmin olunacaq liseydə şagirdlər təhsil dövründə dövlət hesabına 3 dəfə yeməklə və yataqxana ilə də təmin ediləcək. Liseydə təhsil ümumi orta (8-9), tam orta (10-11) olmaqla, iki pillədə həyata keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Əhdinə Sadiq şahmatçı(mız)



*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş beynəlxalq şahmat turnirində 5-ci turun oyunları keçirilib.*

Liderlər cədvəlində qərarlaşan Naxçıvan şahmatçılarından FIDE ustamız Sadiq Məmmədov (2265) azərbaycanlı FIDE ustası Rəşad Zeynallını (2226) sınağa şəkib. Görüş zəka sahibimizin qələbəsi ilə başa çatıb. Beynəlxalq usta Toğrul Həsənzadə (2279) isə Rəşad Həsənovla (2142) “sülh” bağlayıb. Beynəlxalq usta Talıb Babayev (2218) bu tur türkiyəli qrossmeyster Kıvanc Həznədaroğluna (2425), beynəlxalq usta Pərviz Qasımov (2331) isə Fariz Əhmədova (2182) məğlub olub.

Bu tur daha çox liderlərin qarşılaşması ilə yadda qalıb. Keçirdiyi bütün oyunları qələbə ilə başa vuran beynəlxalq usta İsmayıl Şahəliyev (2386) iranlı FIDE ustası Morteza Əsgəri (2244) ilə də görüşdə ağ-qara taxtanı qalib tərk edib. Turnirin bir nömrəli şahmatçısı iranlı qrossmeyster Şahin Lorparizangeneh (2502) azərbaycanlı şahmatçı Babək Cəfərli (2181) üzərində qələbə qazanıb. Azərbaycanlı qrossmeyster Vüqar Rəsulov (2445) da bu turu qələbə ilə başa vurub. O, Lalə Hüseynovadan (1666) üstün olub. İranlı şahmatçı Reza Mehdavi (2303) isə həmyerlisi Sina Movahedi (2051) məğlubiyyətə uğradıb. Azərbaycanlı qrossmeyster Zaur Məmmədov (2410) Hüseyn Həsənov (1603) üzərində qələbəni bayram edib.

Beş turdan sonra maksimum xal toplayan (5 xal) Sadiq Məmmədov və İsmayıl Şahəliyev turnir cədvəlinə liderlik edirlər.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən və mayın 14-dək davam edəcək beynəlxalq turnirdə Azərbaycan, İran, Türkiyə və Ukraynadan olmaqla, ümumilikdə, 214 zəka sahibi mübarizə aparır. Turnirdə muxtar respublikanı 81 zəka sahibi təmsil edir.

**✍ Ceyhun MƏMMƏDOV**

# Komandamız ölkə üçüncüsü olub



Məktəblilərin ordu sıralarında hərbi xidmətə hazırlanmasına köməklik göstərilməsi məqsədilə təşkil olunan “Şahin” hərbi-idman oyunu üzrə Azərbaycan birinciliyinin final mərhələsi reallaşıb. Yarış Bakı şəhərində – Hərbi Qənimətlər Parkının yanında ayrılmış xüsusi ərazidə keçirilib. Müxtəlif bölgələrdən 18 komanda qələbə uğrunda mübarizə aparıb.

Yarışa muxtar respublika mərhələsinin qalibi kimi qatılan “Ordubad” komandası uğurlu nəticəyə müvəffəq olub. Təmsilçimiz 3-cü yerə sahib çıxaraq mükafatçılar sırasına düşüb. Birinci və ikinci yerlərə müvafiq olaraq “Nizami” və “Sumqayıt” komandaları layiq görülüb. Komandalara mükafatları Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov təqdim edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonu, Ələkli kənd sakini Həsənov Əli Səfər oğlunun adına olan JN-344 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Məmmədov Yasin Məmməd oğlunun adına olan JN-728A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Aralıq kəndində yaşamış Mustafayev Yaşar Muradəli oğlunun adına verilmiş JN-274 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur şəhər sakini Ağayeva Aytən Samil qızının adına olan 102013008166-10301reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 406